**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№2 Humanitar elmlər seriyası 2013***

**UOT 316.77.001.12/18;070:001.12/18**

# MİLLİ MƏTBUAT AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏT PRİORİTETLƏRİ HAQQINDA

**A.Ə.ZEYNALOVA**
***Bakı Dövlət Universiteti***
***aytekinzeynalova@mail.ru***

*Sovet sisteminin süqutundan sonra müstəqillik əldə etmiş Azərbaycan Respublikası ikitərəfli və çoxtərəfli əlaqələri genişləndirmək yolu ilə dünya birliyinin sıralarına inteqrasiya xətti götürdü ki, bu prosesdə milli mətbuatın rolu böyük idi. Respublikamızın xarici siyasət prioritetləri sırasına beynəlxalq hüquq normalarına əsaslanan sivil birgəyaşayış normalarının bərqərar olduğu dünya birliyinin sıralarına qoşulmaq, dövlətlərin beynəlxalq hüquqlarının qorunması üçün təsirli tədbirlərin görülməsində fəal iştirak etmək və dövlət quruculuğu prosesində dünya təcrübəsindən yararlanmaq kimi vəzifələr dururdu.*

*Məqalədə milli mətbuatın müxtəlif növlərinin sənəd və materiallarına əsasən Azərbaycan Respublikasının xarici siyasət prioritetləri müəyyənləşdirilir, onların respublikamızın müasir beynəlxalq münasibətlər sisteminə qoşulmasında rolu və əhəmiyyəti açılıb göstərilir.*

**Açar sözlər:** milli mətbuat, beynəlxalq münasibətlər, müstəqilliyin tanınması, mətbuat və siyasət, prioritetlər, xarici siyasət, regional əməkdaşlıq

XX əsrin sonlarında dünyada baş verən ümumplanet miqyaslı qlobal proseslər, "soyuq müharibə"nin başa çatması, vaxtilə dünya sosializm sisteminə daxil olan ölkələrin müstəqil subyektlər kimi dünya birliyinə inteqrasiyası beynəlxalq aləmdə siyasi gərginliyin azalması, qlobal qarşıdurmanın aradan qalxması ilə səciyyələnməklə yeni geosiyasi vəziyyəti şərtləndirmiş oldu. Postsovet məkanında meydana çıxan yeni müstəqil dövlətlərin beynəlxalq münasibətlər sisteminə qatılaraq öz suveren maraqlarını ifadə edən xarici siyasət kursunu həyata keçirməyə başlaması dünyanın geosiyasi mozaikasını dəyişdi. Sovet dövlətinin varlığının son illərində ölkədə gedən demokratikləşmə proseslərində və milli-azadlıq hərəkatının genişlənməsində kütləvi informasiya vasitələri mühüm rol oynayırdı. Müstəqilliyin yaşıdı olan «Azərbaycan», «Aydınlıq», «Azadlıq», «Meydan», «Həyat», «Vətən səsi», «Tərəqqi», «Dalğa» və s. kimi mətbuat orqanlarında milli oyanış, tarixi irsə yeni münasibət, müstəqil dövlətçilik və yeni inkişaf meylləri təbliğ olunur, Azərbaycanın dünya ölkələri ilə əlaqələrinin qurulmasının vacibliyi ön plana çəkilirdi.

Sovet məkanında gedən dezinteqrasiya prosesləri, İttifaqın tədricən dağılması, xalq cəbhəsi adı altında bir sıra siyası qurumların formalaşması, nəhayət, respublikaların İttifaqdan ayrılması bir növ zəncirvari prosesə çevrildi ki, nəticədə Azərbaycan Respublikası da 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan edərək müstəqil inkişaf yolu götürdü (3, 3). 1991-1992-ci illərdə müstəqilliyin tanınması prosesinin gedişində milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi, bu sahədə beynəlxalq təcrübənin mənimsənilməsi yolu ilə dünya birliyinin sıralarına inteqrasiya ən mühüm məsələlər kimi ön plana keçdi. Qısa müddət ərzində dünyanın onlarla dövləti tərəfindən rəsmi surətdə tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi ki, bununla da Azərbaycanın dövlət müstəqilliyinin dönərsizliyi dünya ictimai fikri tərəfindən təsdiqləndi (9, 26; 15, 9).

Müstəqilliyin ilk illərində KİV-də gedən materialların təhlili göstərir ki, başlıca diqqət əsasən dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasına yönəlmişdi. Bu baxımdan Azərbaycanın 1991-1992-ci ilin əvvəllərindən İKT, ATƏT və BMT-nin sıralarına qəbul olunması, İngiltərə, Fransa, ABŞ, Çin və s. böyük dövlətlər tərəfindən tanınması yeni yaranmış müstəqil mətbuat tərəfindən sensasiya kimi qarşılanırdı. İlk illərdə Azərbaycan Respublikasının hansı istiqamət götürəcəyi, qərbyönümlü, yoxsa şərqyönümlü siyasət yeridəcəyi, demokratik inkişafın hansı yolu ilə gedəcəyi milli və xarici mətbuatın xüsusi diqqət verdiyi məsələlərin sırasında idi (12, 13-22).

Dünyanın mühüm geostrateji məkanlarından birində yerləşən Azərbaycan malik olduğu mövqedən həm özünün, həm də tərəfdaşlarının bəhrələnməsi, milli mənafelərinin və təhlükəsizliyinin təmin olunması istiqamətində zəruri tədbirlər həyata keçirir ki, bu baxımdan ikitərəfli və çoxtərəfli əlaqələrin əhəmiyyəti böyükdür. Müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Cənubi Qafqaz regionuna, xüsusilə Azərbaycana səfərləri çoxsaylı mətbuat konfransları və brifinqlərin mövzusuna çevrilməklə qalmır, bu prosesdə Azərbaycan dünyanı tanıyır və tədricən də tanınırdı.

Azərbaycan Respublikasının 90-cı illərin birinci yarısından başlayaraq Aİ, AŞ, QİƏT və NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində fəaliyyəti dünyanın qabaqcıl ölkələri ilə onun əlaqələrinin inkişafına mühüm zəmin yaratmışdır (4, 2; 1, 76). 1997-ci il fevralın ortalarında NATO-nun baş katibi X.Solananın Azərbaycana səfəri ərəfəsində verdiyi müsahibədə "Qafqaz regionunu NATO-nun birbaşa maraqları olan regionlar" sırasına qeyd etməsi qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi və regional təhlükəsizliyin qorunması sahəsində Azərbaycanın maraqlarının Şimali Atlantika təşkilatının maraqları ilə üst-üstə düşdüyünü bir daha təsdiq etdi (1, 36; 15, 132; 8, 214).

Azərbaycanın dünya birliyi tərəfindən tanınması, beynəlxalq birliyi Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına inandırmaq, milli maraqları dünya dövlətlərinin kəsişən və toqquşan mənafeləri ilə uzlaşdırmaq,

Azərbaycanın müstəqilliyinə və təhlükəsizliyinə beynəlxalq təminat almaq, Rusiya və Ermənistan tərəfindən respublikamıza qarşı məqsədyönlü şəkildə yeridilən informasiya blokadasından çıxmaq kifayət qədər mürəkkəb vəzifələr olmasına baxmayaraq, ümummilli lider H.Əliyevin 1993-cü ilin ortalarından yenidən hakimiyyətə qayıdışından sonra addım-addım reallaşdırıldı. "Ayna" qəzeti həmin günlərdə ABŞ politoloqlarından A.Rarın aşağıdakı fikrini dönə-dönə sərgiləmişdi: "bu regionda kommersiya mənafeləri geosiyasi və hərbi mənafelər üzərində üstünlüyə malik olmalıdır" (10, 3). Tədricən milli mətbuat başlıca diqqəti xarici siyasət sahəsində öz həllini gözləyən bir sıra məqamların üzərinə yönəltməyə başlamışdı ki, bunlardan biri də xarici siyasət prioritetlərinin müəyyənləşməsi ilə bağlı idi. "Panorama" qəzetinin yazdığına görə Azərbaycan ilk növbədə regional inkişafın dəstəklənməsini sərgiləməli, sonra isə Şərq və Qərb arasında ticarət-iqtisadi əlaqələrdə vasitəçilik rolunu bərpa etməlidir (7, 2).

Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, Qərb demokratik dəyərləri ilə səciyyələnən inkişaf yolu götürməsi və dövlətçilik mənafelərinin qorunmasında ölkənin zəngin iqtisadi potensial və əlverişli geosiyasi mövqeyi mühüm əhəmiyyət kəsb edirdi. Bu amillər Azərbaycanın milli dövlətçilik maraqlarına cavab verən səmərəli və məqsədyönlü xarici siyasət kursunun həyata keçirilməsi üçün ilkin şərtlərin sırasında idi. Lakin mövcud ilkin potensialı və əlverişli zəmini reallaşdırmaq, onlardan bəhrələnmək beynəlxalq aləmdə cərəyan edən proseslərin ciddi araşdırılmasını, Azərbaycanın maraqlarına uyğun düşünülmüş, hərtərəfli əsaslandırılmış və bütün incəlikləri nəzərə alan addımların atılmasını tələb edirdi. XX əsrdə ikinci dəfə dövlətçilik bayrağını yüksəltmiş Azərbaycan üçün Avropa strukturlarına inteqrasiya perspektivlilik baxımından əhəmiyyətli məsələ idi. Toplanmış materialların araşdırılması göstərir ki, 1991-1998-ci illərdə Azərbaycan ictimai fikrinin mühüm əhəmiyyət verdiyi başlıca məqam ondan ibarət idi ki, Azərbaycan əslində milli mətbuatın müəyyənləşdirdiyi yolla gedir. Göstərilən dövrdə Azərbaycanın xarici siyasətində prioritet istiqamət Türkiyə yönümü, ABŞ yönümü və Avropa yönümündən ibarət idi (9, 26-27; 5 3; 8, 143).

XX əsrin sonlarında strateji inkişaf xətti kimi demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatı yolunu seçən Azərbaycan Respublikası dünya təcrübəsində uğurla sınaqdan keçmiş ümumbəşəri dəyərlərdən çıxış etməklə 1991-1993-cü illərdə ilk sınaq kimi idarəçiliyin qərbləşməsi yönümündə bir sıra tədbirləri reallaşdırdı. Azərbaycan Respublikasında sivil cəmiyyət quruculuğu xəttini reallaşdırmaq məqsədilə bir sıra Avropa təşkilatlarında təmsil olunmaq üçün məqsədyönlü siyasi kurs həyata keçirildi. Azərbaycanın xarici siyasətində dünya dövlətləri ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi ilə yanaşı beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi də mühüm yer tutur (8, 146).

Mövcud elmi-ictimai fikrə görə, müasir dünyanın real güc mərkəzlərinin, regional və beynəlxalq münasibətlərin hazırkı düzümünün nəzəri təhlili özünün

xarici siyasət strategiyasını müəyyənləşdirən, dövlətlərarası regional və beynəlxalq əlaqələrə qatılmaq istəyən hər bir müstəqil dövlət üçün həyati əhəmiyyət kəsb edir. Bu mənada milli mətbuat və KİV-in digər vasitələri göstərilən amillərin nəzarətə götürülməsi, təbliği və təşviqi məsələsində mühüm rol oynayır. Belə ki, milli KİV ilk növbədə Azərbaycanın müstəqilliyinə təhdidləri müəyyənləşdirməklə bir növ xalq qarşısında tarixi xidmət göstərir. Yalnız bundan sonra qoyulmuş məqsədə nail olmanın yolları və vasitələri müəyyənləşdirilir və həyata keçirilir. Müstəqilliyin ilk illərində isə bunların hamısı bir-birinə dolaşdırılmış, "Dalğa" qəzetinin yazdığı kimi, hamı sanki eynı amal uğrunda, lakin bir-birinə qarşı mübarizə aparırdı (11, 3).

Hər bir müstəqil dövlət kimi Azərbaycan Respublikası da spesifik prinsip və xüsusiyyətləri ilə fərqlənən, müxtəlif istiqamətli daxili və xarici siyasət xətti yeridir. Xarici siyasətdə güdülən başlıca məqsəd ölkənin həyatına kənar müdaxilə olmadan təhlükəsiz və əlverişli beynəlxalq şəraitin təmin edilməsi yolu ilə dünya birliyi və ayrı-ayrı dövlətlərlə qarşılıqlı-faydalı əməkdaşlığa, iqtisadi, siyasi, sosial və mədəni həyatın bütün sahələrində əldə edilmiş beynəlxalq təcrübələrin mənimsənilməsinə qarşıya çıxan problemlərin aradan qaldırılması yönündə dövlətlərin səylərinin birləşdirilməsinə və s. xidmət edir. Ölkə daxilində gedən proseslərdən və qarşıya qoyulan vəzifələrdən irəli gələn siyasi xətt dövlətin beynəlxalq münasibətlər sahəsində mövqeyini və xarici siyasətinin istiqamətlərini, xarakterini, prinsiplərini müəyyənləşdirir. Bu mənada xarici siyasəti dövlətin daxili inkişafının əsas vəzifələrindən irəli gələn, ölkənin milli mənafeləri ilə xarici aləmin maraqları arasında sivil birgəyaşayış qaydaları və normaları əsasında uyğunlaşdırılmış, uzlaşdırılmış münasibətlər sistemi yaratmağa xidmət edən məqsədyönlü fəaliyyət növü kimi xarakterizə etmək olar (2, 247-253).

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyyətləri Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında, ümummilli lider Heydər Əliyevin və Respublika Prezidenti İlham Əliyevin çoxtərəfli fəaliyyətlərində öz əksini tapmışdır.

Azərbaycanın Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına görə, respublikamız dünya dövlətləri və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normaları və ölkənin milli maraqlarını nəzərdə tutan prinsiplər əsasında qurur. Ümummilli Lider H.Əliyevin qeyd etdiyi kimi, "respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir" (6, 12).

Müstəqil Azərbaycanın xarici siyasət strategiyası ümumi normalarla yanaşı özünəməxsus xüsusiyyətləri ilə seçilir. Respublikanın xarici siyasətinə xas olan xüsusiyyətlərdən bəhs edərkən beynəlxalq, regional və dövlətlərarası münasibətlərin mövcud vəziyyətinə sürətlə adaptasiya olunmağı bacaran çevik, praqmatik və balanslı siyasət yeridilməsini, qonşu ölkələrlə əlaqələrin qurulmasına prioritet xətt kimi baxılmasını, dünya siyasətinin başlıca oyunçuları olan böyük dövlətlərlə partnyorluq münasibətlərinin yaradılmasının ön plana çıxarılmasını və uyğun strateji xətt yeridilməsini nəzərdə tutan amillərin əhəmiyyəti xüsusilə böyükdür.

Azərbaycanın demokratik və hüquqi dövlət quruculuğu yolu tutduğunu nəzərə alsaq onun xarici siyasəti də dünya təcrübəsinin bütün mütərəqqi nailiyyətlərini, sivil beynəlxalq normaları özündə əks etdirir və hər cür etnik və dini məhdudiyyətləri inkar edir. Azərbaycanın müasir xarici siyasəti açıq və demokratik prinsiplər əsasında qurulmuş, xalqın və dövlətin mənafelərinə, mentalitetinə zidd olmayan bütün beynəlxalq normaları özündə birləşdirmişdir. Müstəqilliyinin ilk illərində xarici siyasətini əsasən etnik və dini təəssübkeşlik üzərində qurmağa cəhd edən Azərbaycan hökuməti zamanın sınağından çıxa bilmədi. Çünki beynəlxalq aləmin yüzillərlə yaranmış və formalaşmış sivil münasibətlər sistemi dövlətlərarası əlaqələrin etnik və milli birlik amili üzərində deyil, tərəflərin mənafelərinin tarazlığı, qarşılıqlı təminatı üzərində qurulmasını tələb edirdi. Buna görə də, eyni dinə və soykökə malik xalqlar və dövlətlər arasında da əlaqələrin qurulması, mədəni, humanitar və s. sahələrdə münasibətlərin yaradılaraq gücləndirilməsi ifrat millətçi və dini meyillərin yaranması istiqamətində deyil, bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq, dünya inteqrasiyası istiqamətində inkişaf etdirilməlidir (1, 460-461).

Azərbaycanın qarşılaşdığı daxili problemlər və xarici təzyiqlər milli mətbuatın "pioner" nümayəndələri kimi ilk olaraq «Azərbaycan" və "Respublika" qəzetlərinin səhifələrində beynəlxalq aləmlə bağlı yazıların görünməsinə və dünya birliyindən yardım istənilməsinə dair təkliflərin səslənməsinə gətirib çıxardı. Xarici KİV-in Azərbaycanda cərəyan edən hadisə və proseslərlə yaydığı informasiyaların xülasəsinə isə ilk dəfə "Azərbaycan" qəzetinin səhifələrində rast gəlmək mümkündür. Milli mətbuat yarandığı gündən beynəlxalq hüquq normaları və prinsiplərindən çıxış edərək beynəlxalq münasibətlər praktikasında hamının qəbul edə biləcəyi, sivil dövlətlərarası münasibətlərin inkişafına və möhkəmlənməsinə bu və ya digər dərəcədə müsbət təsir göstərə biləcək qaydalara əsasən Azərbaycanın xarici təzyiqlərdən qorunmasını önə çəkirdi. Bu o zaman idi ki, "ikili standartlar " hələ milli mətbuatın səhifələrinə yol tapmamışdı.

Azərbaycan mətbuatının səhifələrində dövlətin strateji maraqlarını beynəlxalq güc mərkəzlərinin, region ölkələrinin və Cənubi Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmaq üçün müxtəlif tədbirlərin həyata keçirilməsi, respublikamızın mənafelərini qorumaq üçün hərtərəfli ölçülüb-biçilmiş addımlar atılması ilə bağlı yazılarda müxtəlif dövlətlərin bütövlükdə region  siyasətinin xüsusiyyətlərinə diqqətin yönəldilməsi xüsusilə

ciddi yer alırdı. Azərbaycan Respublikasına qarşı yeridilməkdə olan imperiya siyasətinin xüsusiyyətləri, Ermənistanın Azərbaycana ərazi iddiaları, iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizəsinin reallıqlarını, regionda kəsişən və toqquşan maraqların dəqiq konturlarının müəyyənləşdirilməsi, çevik manevrlər və xüsusi taktiki gedişlərlə Azərbaycanın dövlətçilik mənafelərinin qorunması – bütün bunlar müstəqilliyin ilk dövrlərində milli mətbuatın və ictimai-siyasi fikrin görüntüləri idi.

Tədqiqatçılardan Ə.Həsənovun qeyd etdiyi kimi, Azərbaycanın müstəqilliyinin dönməzliyinə nail olmaq, onu tədricən ənənəvi siyasi təsir dairəsindən çıxarmaq, tarixən formalaşmış xarici iqtisadi, siyasi və mədəni əlaqələrdən müstəqillik mənafeləri üçün səmərəli istifadə etmək, Şərqlə Qərb arasındakı münasibətlər sistemində Azərbaycanın özünəməxsus yer tutmasını təmin etmək üçün region dövlətlərinin köklü mənafelərinə və maraqlarına toxunmamaq şərtilə çoxşaxəli və tarazlaşdırılmış siyasət həyata keçirilirdi ki, (8, 229) bu prosesdə milli KİV-in istiqamətverici rolu mühüm əhəmiyyətə malik idi.

Milli mətbuat regionda böyük təsir gücünə malik olan dövlətlərlə - Rusiya, ABŞ, Türkiyə və İranla qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərin qaydaya salınmasını ön plana çəkirdi. Dövlətlərarası münasibətləri normallaşdırmaq üçün bütün incəlikləri nəzərə alan vasitə və imkanlar araşdırılır, tərəflərin mənafelərinə cavab verən iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafı üçün atılacaq addımların konturları məhz bu prosesdə müəyyənləşdirilirdi.

Müstəqil dövlət quruculuğu prosesində Rusiya, Türkiyə və İranla əlaqələrdən bəhrələnmək, bəzi imperiyapərəst qurumların antiazərbaycan fəaliyyətini bitərəfləşdirmək taktikası Azərbaycanın xarici siyasət kursunda müstəqil bir istiqamət kimi həyata keçirilməyə başlandı. Həmin dövr üçün Azərbaycanın xarici siyasət fəaliyyətində mühüm əhəmiyyət kəsb edən istiqamətlərdən biri də Cənubi Qafqaz bölgəsinin dövlətləri ilə münasibətlərin yaradılması, bu yolla regionda ümumi təhlükəsizlik sisteminin qurulması sahəsində səylərin birləşdirilməsi olmuşdu. Bunu yeni şəraitdə regionun təhlükəsizlik problemlərinin eyniliyi və region dövlətləri arasındakı hərtərəfli əlaqələri tənzimləyən münasibətlər yaradılması tələb edirdi.

Azərbaycan bütün tarixin inkişafı boyu Yaxın və Orta Şərqin nüfuzlu dövlətləri olan İran və Türkiyə kimi regionda xüsusi təsir gücünə malik olan dövlətlərlə sıx qarşılıqlı münasibətlərdə olmuşdur. İstər Azərbaycanın hər iki dövlətlə ikitərəfli, istərsə də bu iki dövlətin öz aralarında mövcud olan əlaqələri hər zaman respublikamızın həm daxili həyatına, həm də beynəlxalq vəziyyətinə öz təsirini göstərmişdir. Ona görə də, müstəqil Azərbaycan diplomatiyası hər iki dövlətlə öz əlaqələrini elə qurmalı idi ki, bir tərəfdən, onların imkanlarından və bölgədə kəsişən maraqlarından Azərbaycan dövlətçiliyinin mühüm problemlərinin həll edilməsində istifadə etsin, digər tərəfdən, respublikanın inkişafını və maraqlarını bu iki dövlət arasındakı münasibətlərin təsirindən qorumağı reallaşdırmaq mümkün olsun (14, 117-122).

Azərbaycanın dövlət müstəqilliyini ilk olaraq qeyd-şərtsiz tanımış Türkiyə ilə münasibətlərini normal və qarşılıqlı faydalı iqtisadi-siyasi əməkdaşlıq və tərəfdaşlıq müstəvisi üzərinə keçirmək milli mətbuatın xüsusi qayğısına çevrilmişdi. Çünki iki ölkə arasındakı münasibətlərin beynəlxalq birgəyaşayış normaları əsasında qarşılıqlı mənafe birliyi üzərində qurulmasına nail olması strateji əhəmiyyət daşıyırdı və hər iki tərəfin beynəlxalq mövqelərinin möhkəmlənməsinə xidmət edirdi. Təsadüfi deyildi ki, iki türk dövləti arasında mənafe birliyi Azərbaycanın beynəlxalq münasibətlər sisteminə daha uğurlu inteqrasiyası yolunda əlverişli imkanlar açmışdı.

Ümumiyyətlə, müstəqil Azərbaycanın xarici siyasət xəttinin mühüm strateji istiqamətlərinin müəyyənləşməsində, Qərbin və Şərqin aparıcı ölkələri və xalqları ilə münasibətlərin tənzimlənməsində, həmin ölkələrlə əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələrin qurulmasında müstəqil milli mətbuatın rolu və əhəmiyyəti böyük olmuşdur. Azərbaycanın geostrareji mövqeyinin, iqtisadi potensialının və imkanlarının dünyanın diqqətində olduğu dövrdə bunların obyektiv qiymətləndirilməsi, bunun regionda maraqları olan ölkələrin iqtisadi və siyasi maraqları ilə uzlaşdırılması elə təxirəsalınmaz vəzifələr idi ki, reallaşdırılması yalnız dövlətin daxili və xarici gücündən birgə istifadəsi sayəsində mümkün ola bilərdi.

**ƏDƏBİYYAT**


1. Abdullayev V.İ. Azərbaycan yeni diplomatiya məkanında. Bakı: Azərbaycan, 2000, 245 s.
2. Azərbaycan Respublikası.1991-2001. Bakı: Azərbaycan, 2001, 184 s.
3. Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı. Bakı: Azərnəşr, 1991, 16 s.
4. Əlaqələrimiz genişlənir. “Vətən səsi” qəz., 1994, 14 may.
5. Geosiyasi rəqabət, yoxsa… “Panorama” qəz., 1996, 6 fevral.
6. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı: Azərnəşr, 1994.
7. Həllini gözləyən vəzifələr. “Panorama” qəz., 1998, 10 yanvar.
8. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: Azərnəşr, 2005, 752 s.
9. Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Bakı: Hərbi nəşriyyat, 1998, 205 s.
10. Keçmişləri xatırlayarkən. “Ayna” qəz., 1998, 28 mart.
11. Milli oyanışın təzadları. “Dalğa” qəz., 1989, 6 noyabr.
12. Müstəqilliyin xronikası. “Respublika” qəz., 1992, 21 fevral.
13. Дарабади П.Г. Геоистория Каспийского региона и геополитика современности. Б.: Элм, 2002, 192 s.
14. Дипломатия мира. Б.: Азернешр, 1997, 193 s.
15. Самедов А. Азербайджан в современной системе международных отношений (1993-2003), Баку: Элм, 2004, 193 с.

## НАЦИОНАЛЬНАЯ ПЕЧАТЬ О ВНЕШНЕПОЛИТИЧЕСКИХ ПРИОРИТЕТАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**А.А.ЗЕЙНАЛОВА**

### РЕЗЮМЕ

Азербайджанская Республика, приобретшая независимость в результате распада советской системы, выбрала курс интеграции в мировое сообщество путем расширения двусторонних и многосторонних связей. В этом процессе большую роль сыграла национальная пресса. В ряд внешнеполитических приоритетов входили такие важные задачи как вхождение в состав мирового сообщества, построенного на основе нормы международного права и, где установлены правила цивилизованного общежития, активное участие в принятии действенных мер для защиты международных прав каждого государства, пользоваться мировым опытом в деле строительства государственности.

В статье, на основе документов и материалов всех видов национальной печати, определены внешнеполитические приоритеты Азербайджанской Республики, раскрываются ее роль и значение во вхождении нашей страны в систему международных отношений.

**Ключевые слова:** национальная печать, международные отношения, признание независимости, печать и политика, приоритеты, внешняя политика, региональное сотрудничество

## NATIONAL PRESS ON PRIORITIES OF THE FOREIGN POLICY OF THE REPUBLIC OF AZERBAIJAN

**A.A.ZEYNALOVA**

### SUMMARY

After the collapse of the Soviet system the Republic of Azerbaijan chose the way of integrating to the world community by developing mutual and multilateral relations and in this process the role of national press should be appreciated.Joining the world community based on international civil norms of coexistence, participating in the process of taking instrumental measures for safeguarding international rights of the states and benefiting from world experience for state-building are the priorities of the foreign policy of our Republic. The article determines the priorities of the foreign policy of the Republic of Azerbaijan based on different types of documents and materials and shows the role and importance of them in joining modern international relations system.

**Key words:** national press, international relations, recognition of independence, press and politics, priorities, foreign politics, regional cooperation